Qiymət 1 manat

**Lazım olan işarəni qoyun!**

| | | | | |
|---|---|---|---|---|
| 9 | | 4 | = | 5 |
| | | | | |
| 2 | | 1 | = | 3 |
| = | | = | | = |
| 7 | | 5 | = | 2 |

| | | | | |
|---|---|---|---|---|
| 4 | | 3 | = | 1 |
| | | | | |
| 6 | | 2 | = | 4 |
| = | | = | | = |
| 10 | | 5 | = | 5 |

## FƏRQİ TAP!





**Abunə olmaq üçün!**

**Jurnalımızı əldə etmək üçün bu mətbuat yayımı firmalarına zəng vurun:**
**"Qaya" (012) 564 48 96; (012) 564 63 45; "Səma" (012) 596 22 97;**
**"Metro Servis" (012) 434 01 33; "XPress-Elita" (012) 437 28 10;**
**Mətbuat yayımı (012) 440 46 94.**

İSSN-0207-4710

# GÖYƏRÇİN

10
2019



## ABDULLA ŞAİQ



### VƏTƏN NƏĞMƏSİ

Çağırır Vətən,
İstəyir kömək.
Onu düşməndən
Qorumaq gərək!

Bizim ölkənin
Şanlı əsgəri,
Dağlardan mətin
Polad səfləri.

Kinlə kim ayaq
Bassa ölkəmə,
Bu şanlı torpaq
Batırar qəmə.

Çağırır Vətən,
İstəyir kömək.
Onu düşməndən
Qorumaq gərək!

## RƏŞİD BƏY ƏFƏNDİYEV



### DOĞMA YURD

Bir oğlan elm oxumaq üçün başqa vilayətə getmişdi. Qəriblikdə neçə vaxt qalıb vətənə qayıtdı. Yoldaşları onunla görüşməyə gəldilər. Bir oğlan gördüyündən, eşitdiyindən danışdığı vaxt yoldaşlarından birisi soruşdu ki, gördüyün şeylərin hamısından sənə ən çox xoş gələni və ləzzət verəni nə oldu?

Oğlan cavab verdi ki, vətənə gələndə, atamın evinə yaxınlaşanda yaşıl ağacların arasında evimizin divarı gözümə sataşdıqca, hiss eylədim ki, könül fərəhi kimi gözəl şey ola bilməz. Vətənə gəldim - imana gəldim.



## MAHNI SOVQATI

Söz: Rafiq Yusifoğlu
Musiqi: Rəşid Şəfəq

### MÜƏLLİM

Hamımızın qəlbində
Yuva qurdu müəllim.
Nadanlardan qorudu
Ana yurdu müəllim.
Vətənin keşiyində
Sayıq durdu müəllim.
Düşmənlərin gözünə
Enən tordu müəllim.
Yolumuzun üstündə
Yanan nurdu müəllim.



F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. №